| Xəstəlik sinifi (XBT-10) | K - Həzm sisteminin xəstəlikləri |
|---|---|

| İlkin versiyanın tərtibatçı(İSİM) | Məmmədova L. |
|---|---|

| XBT-10 rubrikası | Xəstəliklər |
|---|---|
| **K83.0** | Xolangit |

| Müalicə |
|---|

Kəskin irinli xolangit zamanı - xolangitin klinik əlamətlərinin aradan qaldırılması ilə xəstələrin əmək qabiliyyətinin və sosial vəziyyətinin bərpası.

Birincili sklerozlaşan xolangit zamanı - xolangitin klinik əlamətlərinin azaldılması, remissiya müddətinin uzadılması, qaraciyər sirrozu və xolangiokarsinoma riskinin azalması.

Xolangit olan xəstələr üçün müalicə taktikası mümkün qədər fərdiləşdirilməlidir, lakin son nəticədə xarici və ya daxili drenaj vasitəsilə öd yolların keçidini bərpa etməyə yönəldilməlidir.

Xolangitin cərrahi müalicəsi öd yollarının dekompressiyasına yönəldilmişdir.

Dərman müalicəsi:

Ağrıkəsici dərmanlar:

· ***Hyasin butilbromid (Hyoscine butylbromide),*** 20 mq gündə 4 dəfə əzələdaxili və ya venadaxili olaraq 5 günə qədər;

· ***Platifillin (Platifillin),*** 0,2% -1,0 gündə 2 dəfə əzələdaxili və ya Hyasin butilbromid olmadıqda 5 günə qədər;

· ***Ketorolak (Ketorolac***), 15 mq/ml, 30 mq/ml gündə 2-3 dəfə əzələdaxili olaraq əməliyyatdan sonrakı dövrdə 5 gündən çox olmayaraq.

Antibakterial terapiya:

· ***Metronidazol (Metronidazole),*** 500 mq 100 ml-də gündə 3 dəfə venadaxili 7 gün;

· ***Siprofloksasin (Ciprofloxacin),*** 0,2% - 200 mq 100 ml-də gündə 2 dəfə venadaxili 7-10 gün.

İnfuzion terapiya: infuziya terapiyasının həcmi dehidratasiya dərəcəsi ilə müəyyən edilir və gündə 60 ml/kq-dan çox olmamalıdır. Ağır hallarda infuziya terapiyası mərkəzi venoz təzyiq və ürək dərəcəsinin nəzarəti altında aparılır. Mərkəzi venoz təzyiqdə kəskin dəyişiklər və ürək dərəcəsinin artması olmamalıdır.

· ***Natrium xlorid (Sodium chloride),*** 0,9%;

· ***Natrium laktatın (Sodium lactate)*** kompleks məhlulu.

Parenteral qidalanma məhsulları, xəstələrə əməliyyatdan əvvəlki və sonrakı dövrdə, 2 gündən artıq enteral qidalanma təmin etmək mümkün olmadıqda istifadə olunur.

· ***Dekstroz (Dextrose),*** məhlulu 10%, 20%, 40%;

ağır hallarda və enteral qidalanmanın qeyri-mümkünlüyündə:

parenteral qidalanma üçün yağ emulsiyası(A fat emulsion for parenteral nutrition).

Xolangitin kompleks müalicəsində digər dərmanlar:

· ***Metoklopramid (Metoclopramide),*** 0,5% 2 ml gündə 2 dəfə əzələdaxili və ya venadaxili 1-3 gün ərzində.

Ürək bulantı və qusma zamanı:

· ***Nadroparin (Nadroparin calcium),*** 0,3 ml gündə bir dəfə 7-10 gün ərzində, koaquloqramma nəzarəti altında. Tromboz və emboliyanın qarşısının alınması üçün əməliyyatdan əvvəl və sonrakı dövrdə istifadə olunur.

## Ədəbiyyat

**Холангит у взрослых - Версия: Клинические протоколы МЗ РК - 2015 (Казахстан)**

**https://diseases.medelement.com/disease/%D1%85%D0%BE%D0%BB%D0%B0%D0%BD%D0%B3%D0%B8%D1%82-%D1%83-%D0%B2%D0%B7%D1%80%D0%BE%D1%81%D0%BB%D1%8B%D1%85/14468**